**İ.Ə.ƏHMƏDOVA**
*baş müəllim*
*e-mail: ridvan_baku@mail.ru*
**:https://orcid.org/0009-0000-4024-2424**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

**10.62021/0026-0028.2025.2.260**

# MUSİQİ İFADƏ VASİTƏLƏRİNİN MƏNİMSƏNİLMƏSİ MUSİQİ ƏSƏRİNİN DƏRK OLUNMASI ŞƏRAİTİNİN AMİLİ KİMİ

***Xülasə:*** *Musiqi ifadə vasitələrinin mənimsənilməsi musiqi əsərinin dərk olunmasında mühüm rol oynayır. Bu vasitələrin şüurlu istifadəsi ifaçıya əsərin emosiyalarını və xarakterini daha dərindən çatdırmağa imkan yaradır. Bu vasitələrə yiyələnmədən ifadəli və mənalı ifaçılığa nail olmaq mümkün deyildir.*

***Açar sözlər:*** *tələbə, dinamika, musiqi, homofoniya, fortepiano*

"Dərslərə davamlı marağı qorumaq üçün tələbənin müstəqil düşünməyə və şəxsi təşəbbüs göstərməyə meylinin formalaşdırılması böyük əhəmiyyət kəsb edir" [1, s.83].

Musiqi forması – əsər hissələrinin yaxud bölmələrinin ardıcıllığıdır – oxşar və fərqli, böyük və kiçik. Forma hissələrdən ibarətdir ki, onların hər biri müəyyən funksiyanın daşıyıcısıdır. Hissələrin müəyyən ardıcıllığı əsəri bütövlükdə əhatə etməyi kömək edir, bədii niyyətin ifadəsində iştirak edir. Musiqi formaları şərti olaraq homofoniklərə və polifoniklərə bölünürlər. Homofonik formada bir səs (adətən, yuxarıdakı) aparıcı əhəmiyyət kəsb edir. Polifonik formada bütün səslər melodik cəhətdən bərabərhüquqlu və müstəqildir.

Homofon – harmonik tərzin səciyyəvi olduğu son üç əsrin musiqisində mövzu, adətən, böyük deyildir və period formasında ifadə olunur. İnstrumental musiqidə, müstəqil forma kimi period, romantiklərdə rastlanır (Şopendən əvvəl, demək olar ki, yox idi). Aləmin lirik qavrayışı, romantik musiqi məzmununun ən mühüm tərəfi kimi, instrumental musiqidə yeni formalar yaradır: lirik şeriyyət ovqatına ideal yaraşan forma kimi, period kuplet mahnılarında rastlanır. Adətən, period iki oxşar hissədən, iki cümlədən ibarət olur. İkinci cümlə – lap sonluq istisna olmaqla – birincini demək olar ki, tam təkrarlaya bilər. Bu kiçicik dəyişiklik bitkinlik yaradır. Periodun ikinci yarısı (2-ci cümlə) birinciyə nisbətən, daha sabit sonluğa malikdir və mövzunun ifadəsi burada aydın və dürüst şəkildə tamamlanır. Cümlələr bir-birindən fərqlənə bilər, lakin musiqinin hansısa bir hissəsi təkrarlanır. Buna görə də, bu cür period təkrar quruluş periodu yaxud da bəzən əsas növ periodu adlanır. Uzaq keçmişdə, Avropa ölkələrinin xalq və professional (Bax, Motsart) musiqisində təşəkkül tapmış əsas növ periodu, hal-hazırda da özünün "həyat qabiliyyətini" qoruyub saxlayır. Bir çox musiqi əsərlərinin mövzuları təkrar quruluş periodu formasındadır, mahnı və rəqs musiqisi isə ondan daha çox istifadə edir.

Əgər əsər birhissəli formada yazılmışdırsa, yəni yalnız mövzunun ifadəsindən ibarətdirsə, onda bir qayda olaraq, biz təkrar quruluş periodu ilə yaxud əsas növ periodu ilə rastlaşırıq. Daxili təkrardan ibarət əsas növ periodu, əsas musiqi fikrini daha yaxşı yadda saxlamağa kömək edir, bunsuz isə musiqi əsərini anlamaq, onun məzmununu təhlil etmək mümkün deyildir. Bilavasitə təkrar dinləyici üçün də mövzu ilə ilk tanışlıqda əla köməkçidir. Qeyri-təkrar quruluş periodu mövcuddur (daha inkişaf etmiş formalarda) ki, burada ikinci cümlə birincini təkrarlamır, onu davam etdirir. Elə periodlara rast gəlmək olur ki, onlar ümumiyyətlə cümlələrə bölünmürlər. Mövzunun təkrarı heç də həmişə tam olmur. O cümlədən mahnı və rəqs möv-

zularında daha tez hansısa bir hissə təkrarlanır. Mövzunun inkişafı üçün birhissəli forma çərçivəsindən kənara çıxmaq lazımdır. İki perioddan ibarət formaya rast gəlmək olur ki, ona sadə ikihissəli forma deyilir. Mövzu baxımından onlar vahiddir.

Birinci hissə sadə perioddur. Bu periodun hər iki cümləsi mövzu baxımından oxşardır. İkinci hissə də iki cümlədən ibarətdir, burada birinci hissənin tematik materialının təkrarı vardır. Yeni melodiko-ritmik materialın və qeyri-sabit harmoniyanın daxil edilməsi hesabına birinci cümlə birinci periodla təzad təşkil edir.

İkinci cümlədə birinci periodun hissəsi təkrarlanır və o repriza adlanır. Reprizanın vəzifəsi – bütün formanın tematik birləşdirilməsidir. Reprizasız ikihissəli formaya rast gəlmək olur. Bu cür ikihissəli forma vokal əsərlər üçün səciyyəvidir. Hissələrin qohumluğu (yaxınlığı) ümumi ladda, tonallıqda, ölçüdə, onların eyni böyüklüyündə, bəzən də melodik oxşarlıqda, ümumi intonasiyalarda özünü büruzə verir. Birinci hissə ilə müqayisədə ikinci də həm öncə olanlardan, həm də yeni bir nə isə səslənir.

Müstəqil əsərin forması kimi ikihissəli formaya böyük olmayan instrumental əsərlərdə, vokal minuaturlarda, rəqslərdə, marşlarda rast gəlmək olur. Hər hansı bir sonatanın, simfoniyanın, kvartetin və s. bu və ya digər bölməsi ikihissəli formada yazılmış ola bilər. Reprizalı ikihissəli formada reprizanın payına ikinci hissənin yalnız yarısı düşür. Lakin repriza tam da ola bilər. Belə halda orta hissə və repriza müstəqil hissələrə çevrilirlər və biz artıq sadə üçhissəli forma haqqında danışırıq.

Birinci hissəsi, ikihissəli formanın birinci hissəsi kimidir. İkinci hissə birinci mövzunun inkişafına yaxud yenisinin ifadəsinə həsr edilmişdir və kənar hissələrlə təzad təşkil edir. Üçüncü hissə – reprizadır. O, tam perioddan ibarətdir və bununla da ikihissəli formada fərlənir. Repriza birinci periodu təkrarlayır. O, tam müstəqildir və kifayət qədər inkişaf etmişdir. Üçhissəli formaların girişləri adətən böyük deyil, onlar dinləyicini əsas olan nəyə isə hazırlayır. Sonluq isə bütün əsrin inkişafını tamamlayır, yekunlaşdırır və buna görə də girişdən əhəmiyyətlidir.

Bir çox vokal və instrumental əsərlər sadə üçhissəli formada yazılmışlar. Fortepiano pyesləri və romanslar, marşlar, orkestr miniatürləri bu formadan istifadə edirlər. Yalnız ayrı-ayrı əsərlər deyil həm də çoxhissəli əsərlərin (süitaların, sonataların və s.) müstəqil hissələri, ikihissəli formaya nisbətən bu formada daha çox bəstələnir. Sadə üçhissəli formanın aydınlığı, sadəliyi və müvazinəti bir çox janrlarda istifadə olunur. Əhvali-ruhiyyələrin, təsərrüfatların daha böyük təzadlarını aşkar etmək üçün mürəkkəb üçhissəli formadan istifadə edilir. Kənar hissələri mövzu baxımından eyni sadə iki yaxud üçhissəli formada olan; orta hissəsi isə quruluş baxımından müxtəlif olan, kənar hissələrlə təzad təşkil edən formaya mürəkkəb üçhissəli deyilir. Aydın qarşılaşdırılan, təzadlı surətlərin mövcudluğu mürəkkəb forma üçün xüsusilə səciyyəvidir. Müstəqilliyi sayəsində onların hər birinə geniş inkişaf lazımdır və periodun çərçivəsinə sığmayaraq sadə forma yaradır.. ("Müəllim yüksək səviyyədə musiqi mədəniyyətinə malik olmalıdır... müxtəlif dövrlərdə yaradılmış görkəmli musiqi əsərlərini bilməlidir. Onların üslubunu, formasını və musiqi ifadə vasitələrini xarakterizə etməyi bacarmalıdır") [1, s. 62].

Tələbələrin musiqi əsərləri üzərində müstəqil iş metodikası üzrə əsas məqamlar.

1. Əsərin ümumi təhlili. Janr, forma, üslub və dövrün xüsusiyyətləri barədə ümumi məlumat. Bəstəkar haqqında qısa məlumat.

2. Əsərin dinlənilməsi və ilkin qavranılması. Əsərin emosional və obraz məzmununun qavranılması.

3. Nota mətninin təhlili. Tonallıq, metrum, ritm, harmoniya və faktura. İnciklərlə oxuma (dinamikalar, artikuləsiya, aqoqika)

4. Texniki çətinlikiərin müəyyən edilməsi. Barmaq texnikasının seçilməsi.

5. Yadda saxlama üsulları. Görmə yaddaşı, eşitmə yaddaşı və motor yaddaşı ilə iş.

6. Bədii obraz üzərində işləmə. İfa zamanı emosional tərcümə.

7. Nəzarət və özünüqiymətləndirmə. Öz ifasının dinlənməsi və təhlili. Müəllim tövsiyələrinə əsaslanaraq düzəlişlər.

8. İctimai ifaya hazırlıq. Səhnə mədəniyyəti və artistik ifa.

Azərbaycan musiqi forma təşəkkülündə, onu Avropa üslublarında fərqləndirən bir qanunauyğunluq mövcuddur. Müəllifin fikrincə, bir çox digər qanunauyğunluqlarla bərabər və əlbəttə qarşılıqlı əlaqədə bu qanunauyğunluq milli musiqi dilinin spesifik nizamına böyük təsir göstərir. Onda milli musiqi təfəkkürün və bütövlükdə xalq üslubunun təkrarsız bir qismi öz əksini tapmışdır. Azərbaycan musiqisinin yeni ümumdünya janrları və formaları ilə zənginləşməsi üçün bizim musiqimizin digər xalqların musiqi mədəniyyəti ilə sıx qarşılıqlı əlaqələrinin tərəfdarı olan Hacıbəyov, eyni zamanda milli ənənələrə ehmallı münasibətin zəruriliyini daim qeyd edirdi. Azərbaycan musiqisinin digər xalqların musiqi mədəniyyətləri ilə qarşılıqlı münasibətlərinin və təsirlənmələrinin ən mühüm xüsusiyyətlərindən biri kimi Hacıbəyov, öncə musiqimizdə olmayan janr və formalarla zənginləşməsini hesab edirdi. İnstrumental musiqinin müxtəlif kompazisiyaları arasında sonata forması geniş dramatik kompozisiyadır ki, müxtəlif musiqi surətlərinin, fikirlərinin təzadlı qarşılaşdırılmaları, bəzən isə gərgin və ziddiyyətli toqquşmaları nəticəsində yaranır. Sonata forması – irihəcmli instrumental əsərin hissələrindən birinin (adətən birincinin) daxili quruluşunun təyinidir. Ekspozisiya işlənmə və epiloq – kodası olan repriza, sonata formasının üç əsas bölməsidir. Sonata formasının əsasını təkrarlanan ikimövzululuq təşkil edir.

Ekspozisiya – iki mövzunun ifadəsidir. Birincisi, əsas mövzu, bütün əsərin əsas tonallığıda ifadə olunur. Onun intonasiya məzmunu bütün əsərin xarakterini əhəmiyyətli dərəcədə müəyyən edir. İkinci mövzu, köməkçi partiya, birinciyə təzad təşkil edən yeni tonallıqda ifa olunur. Köməkçi partiyanın adı tarixən onun nəticəsində yaranmışdır ki, sonata formasının ikinci mövzusu, əsas deyil, “köməkçi” tonallıqda ifa olunurdu. Bəstəkarlar sonatanı parlaq melodik məzmunla zənginşləşdirməyə çalışırdılar. Bununla əlaqədar, bir çox sonatalarda bağlayıcı partiyalar əsas partiyanın intonasiyaları üzərində qurulurlar ki, bu da əsərə yekparəlik gətirir. Lakin yeni müstəqil melodiyalı bağlayıcı partiyalara da rast gəlmək olur ki, onları köməkçi partiyadan tonal qeyri-sabitlik, ifadənin natamamlığı fərqləndirir. Bəzən yeni ifadəli mövzu ekspozisiyanın sonunda meydana çıxır ki, onu tamamlayıcı partiya adladırırlar. Lakin adətən tamamlayıcı partiya, əsas mövzunun qayıtması və inkişafı üzərində qurulur.

Sonata formasının ikinci böyük bölməsi – işlənmədir ki, öncəki musiqi məzmununun inkişafına aparıcı musiqi mövzuların və surətlərin (əsas köməkçi və tamamlayıcı partiyalar) qarşılaşdırılmasına və gərgin mübarizəsinə əsaslanır. İşlənmə bütün musiqi kompozisiyasının ən parlaq və dinamik inkişaf mərhələsidir. Məhz burada, ekspozisiyanın əsas surətləri və musiqi ideyaları yeni şəkildə, elə bil ki, müxtəlif nöqteyi-nəzərlərdən açıqlanır.

Sonata formasının üçüncü bölməsi repriza, ekspozisiyanın musiqi materialını dəyişdirilmiş şəkildə qaytarır və təsdiqləyir. Reprizanın ən mühüm fərqi (xüsusiyyəti) əsas və köməkçi partiyalar arasındakı tonal təzadın yox olmasıdır. Tematik qarşılaşdırılmaların dramatik ziddiyyəti bir qədər mülayimləşir. Hissənin ümumi kompozisiyasını sonluq yekunlaşdırır. Sonata silsiləsinin iti sürətli, fəal birinci hissəsi (“sonata alleqro” – su) böyük bədiiliklə gerçəkliyin bu və ya digər tərəflərini və ən əvvəl insanın daxili aləminin müxtəlifliyini, onun həyəcanlarını və ovqatlarını, həyat mübarizəsini və həm də insan xarakterlərinin müxtəlif tərəflərini canlandırır.

Klassik sonataların əksəriyyətinin birinci hissələri inkişafının gərginliyi ilə səciyyələnir. Klassik sonatanın ikinci hissəsi – yavaşdır, ahəngdardır. Adətən sadə mahnı xarakterlidir. Sonataların yavaş hissələrinin temp göstəriciləri: Andante, Adagio, Largo. Klassik sonatanın üçüncü hissəsi adətən çox iti tempdə ifa olunur. XVIII əsr sonatalarının finallarının əksəriyyəti işıqlı, nikbin dünyagörüşünü ifadə edirlər. XIX əsrdə klassik sonataların bədii məzmun dərinliyinin və əhəmiyyətinin artması ilə əlaqədar finallar daha çox sonata formasında yazılırdı. Tez-tez onlar bütün əsərin dinamik kulminasiyası əhəmiyyətini daşıyır. Bethoven sonatalarının bir çoxunun finalları belədir.

Sonata formasının əsasını təkrarlanan ikimövzululuq təşkil edir. Romantiklərin yaradıcılığında mühafizə edilmiş klassik sonata, şəklini dəyişir. Lirik ovqatın üstünlüyü sayəsində sonata formasında ovqat artıqlığı aşkarlanır. Köməkçi partiyanın rolu artır. İfadəli təfsilatlara, rəngarəng momentlərə meyil yeni tipli sonata işlənməsinin yaranmasına səbəb olur. Romantik

sonatalar üçün mövzuların variasiya transformasiyası, fasiləsiz inkişafı səciyyəvidir. Romantik bəstəkrlar sərbəst formaya meyil edirdilər.

Müstəqil məşqlər zamanı tələbənin özünə nəzarət etməsi vacibdir. Bu qabiliyyətin inkişafı ilə tələbə müstəqilləşir və müəllimin köməyi ilə artıq özü də özünə xas olan mənfi keyfiyyətləri aradan qaldırmağa cəhd edir. Özünə nəzarət musiqiçi üçün son dərəcə səciyyəvi hal olmalıdır. Çünki o öz daxilində gedən emosional proseslərə nəinki nəzarət etməyi bacarmalı, o, onları idarə etməyi və Musiqi əsərinin məzmununun dərki, kompozisiya quruluşunu anlamadan və musiqi ifadə vasitələrini aşkarlamadan mümkün deyil.

Fortepiano sinfinin məşğələlərində istifadə olunan musiqi əsərlərin əsas formalarını təhlil edib belə nəticəyə gəldik ki, musiqi əsərlərinin quruluş qanunlarının dərki musiqinin hədsiz mənəvi zənginliyinin daha dolğun və dərindən anlaşılmasına imkan verir. Bəstəkar əsərin konkret məzmununa və ideyasına uyğun olan formanı, kompozisiya planını seçir yaxud yaradır. Forma musiqi materialını elə yerləşdirir ki, müəllifin ideyası daha dolğun və dərindən ifadə edilsin, sonra isə dinləyicilər tərəfindən qavranılsın və anlaşılsın. Bu əsərin forması haqqında təsəvvür onun haqqında vahid bədii təsəvvür üçün möhkəm əsas olmalıdır.

***Problemin aktuallığı.*** Aktuallıq ondan ibarətdir ki, musiqi əsərinin mahiyyətinin başa düşmək və onun emosional təsirini hiss etmək üçün ifaçının bu vasitələri düzgün qavraması və tətbiq etməsi zəruridir.

***Problemin yeniliyi.*** Musiqi ifadə vəsitələrinin mənimsənilməsi musiqi əsərinin dərk olunması üçün vacib şərtlərdən biridir. Musiqinin əsas struktur elementləri kimi, melodiyanın quruluşu və ritmin dinamikası əsərin xarakterini açmağa kömək edir.

***Problemin praktik əhəmiyyəti.*** Musiqinin əsərinin harmonic quruluşunu başa düşmək onun dramatik inkişafını izləməyə və duymağa imkan yaradır.

**Ədəbiyyat**

1. Арчажникова, Л. Профессия – учитель музыки / Л.Арчажникова, – Москва, Просвещение, – 1984, – 110 с.
2. Алексеев, А.Д. История фортепианного искусства / А.Д.Алексеев, – М, – 1988, – 415 с.
3. Холопов, Ю.Н. Введение в музыкальную форму/Ю.Н.Холопов, –Москва: МГК, –2006, –432 с.

**I.A.Ahmadova**

**Mastering Musical Expressive Means as a Factor in Understandimg a Musical Piece**

***Summary***

Mastering musical expressive means plays a key role in understanding a musical piece. Their conscious use allows the performer to convey emotions and the character of the piece more deeply. Without knowledge and command of these means, achieving expressive and meaningful performance is impossible.

***Key words:*** *student, dinamic, music, homophony, piano*

**И.А.Ахмедова**

**Освоение музыкально-выразительных средств как фактор понимания музыкального произведения**

***Резюме***

Освоение музыкально-выразительных средств играет ключевую роль в понимании музыкального произведения. Их осмысленное использование пользоволяет исполнителю глубже передать эмоции и характер произведения. Без знания и владения этими средствами невозможно достичь выразительного и осмысленного исполнения.

***Ключевые слова:*** *студент, динамика, музыка, гомофония, фортепиано*

*Rəyçi: sənət. f.d., dos. A.F.Aşumova*
*Redaksiyaya daxil olub: 06.05.2025*